Heyvandarlığın inkişafında və heyvandarlıq məhsullarının istehsalının artırılmasında bol və keyfiyyətli yem ən başlıca şərtdir. Malqaranın yem payında otun xüsusi çəkisi böyükdür. Fermerlərin heyvandarlıq sahəsində yem bitkisi kimi istifadə etdikləri bitkilər içərisində yonca əsas yerlərdən birini tutur. Qurudulmuş yonca otunun saxlanmasında qaydalara düzgün əməl olunmaması nəticəsində quru ot tamamilə keyfiyyətsiz hala düşür, ümumi yem ehtiyatının dəyəri istər yemləmədə, istərsə də quru ot satışında 50 %-ə qədər itirilir.

***Qurudulmuş yonca otunun tədarükünün düzgün aparılmaması aşağıdakı mənfi nəticələrə gətirib çıxarır:***

- Qabalaşır;
- Yarpaqlar və qönçələr kütləvi şəkildə tökülür;
- Kiflənir;
- Xoşagəlməz İy əmələ gəlir;
- Xaraci görnüşünü itirir;
- Yemləndirmədə zəhərlənmələrə səbəb olur.

***Bu itkini aradan qaldırmaq üçün nələrə əməl etməli?***

### *Otun vaxtında çalınması*

Elə obyektiv səbəbələr var ki, artıq onlar insanların imkanı xaricindədir. Bunlara misal olaraq uzunmüddətli yağışların yağmasını, daşqınları və digər təbii fəlakət hadisələrini göstərmək olar. Yoncanın çalınması və ot yığımı intensiv yağışlar yağan dövrə təsadüf edən hallarda fermerlər lazım gəldikdə bütün imkanlarını səfərbər etməli, otun toplanmasında yüksək bacarıq nümayiş etdirməlidirlər. Bunun üçün fermerlərin nəzərinə bəzi tövsiyyələri çatdırmağı məsləhət bilirik. Bu iş yoncanın çalınması ilə başlayır.



Yoncanı çiçəkləmə dövrünün əvvəlində çalmaq lazımdır. Yonca gec çalındıqda bitkilərin tərkibi pişləşir və quru yonca otunun keyfiyyəti azalır. Tam aqrotexniki qaydada yoncanın çalınması sahədə qönçələmə 90-95% olduqda aparılmalıdır. Çünki bu dövr bitkilərin ən qiymətli və qidalı dövrü hesab olunur.

Bəzən sahələrdə yoncanın güclü seyrəlməsi müşahidə olunur ki,bu da müxtəlif səbəblərdən baş verir. Bunlardan biri də yonca otunun çalımının düzgün aparılmamasıdır. Yonca otunun 8-10 sm hündürlükdə biçilməsi məsləhət görülür. Bəzən təsərrüfat sahibləri ot artımını nəzərə alaraq yoncanın həddindən artıq dibdən çalınmasına maraq göstərirlər. Bu isə çox ziyanlı bir nəticəyə gətirib çıxarır. Belə ki, biçimi çox aşağıdan (5-6 sm) apardıqda kollanma düyünü zədələnir, yeni əmələ gələn zoğlar və bitkinin aşağı hissələrindəki tumurcuqların çoxu kəsilir. Nəticədə sonrakı biçimdə bitkinin məhsuldarlığı aşağı düşür.

### *Nümunəvi qurutma*

Çalınmış otun qurudulmasında məqsəd otu uzun müddət yaxşı saxlamaqdan ibarətdir. İtkilərin qarşısını almaq və onu kəskin surətdə azaltmaq üçün otun qurudulması müddətini minimuma endirmək lazımdır. Yoncanı qurudan zaman qiymətli qida maddələri ilə ən zəngin olan yarpaqların saxlanmasına çalışmaq lazımdır.



Yoncanın sahədə qurudulması zamanı onun tez-tez çevrilməsinə çalışmaq lazımdır, əks halda otun altında qalan bitkilər artıq rütubətin və qızışmanın nəticəsində məhv olur, ot isə kiflənərək öz keyfiyyətini itirir. Sahədə otun çox saxlanması nəticəsində növbəti çalım inkişaf edə bilmir, yoncanın saralması

müşahidə olunur. Bunun üçün otun qısa müddətdə qurudulmasına və tez bir müddətdə sahədən çıxarılmasına çalışmaq lazımdır. Biçilmiş ot uzun müddət açıq havada, dağınıq halda saxlanıldıqda həddən artıq quruyur, onda olan qida maddələrinin və vitaminlərin müəyyən qədəri itir. Buna görə də toplanmış yemin keyfiyyətinə fikir verilməlidir.

***Hesablamalar göstərir ki, otun qurudulub daşınması zamanı 15-35%-ə qədər itki olur.***

***İtkini minimuma endirmək üçün məhsulun toplanması zamanı diqqətli olmaq lazımdır!***

### *Otun tayalara yığılması qaydası və saxlanması*

Hazırlanmış ot ancaq səhərlər, yaxud da axşam çağı tayalara vurulmalıdır ki, itkiyə yol verilməsin. Məlumdur ki, otun əsas qida maddələri yarpaqlardadır. Ot tayalara vaxtında yığılmadıqda yarpaqlar tökülür və ot keyfiyyətsiz hala düşür. Ot tayalara yığılarkən bərabər qaydada yığılıb tapdanmalıdır. Ən yaxşı saxlama üsulu quru otun anbarlarda və çardaqlarda saxlanmasıdır. Çünki bu üsulla saxlanmış otun tərkibində, tamında və rəngində dəyişiklik əmələ gəlmir. Təcrübə göstərir ki, düzgün qurudulub tayalara vurulmuş yonca otu təbii rəngini, ətrini, yarpaqlarını, çiçəklərini, saflığını və keyfiyyətini yaxşı saxlayır.

***Yadda saxlamaq lazımdır ki, otun keyfiyyətli surətdə toplanması və saxlanması onun satışında Sizə əlavə olaraq 30% qazanc gətirə bilər.***

**İsgəndər Qasımov**

Layihə Dünya Bankının vəsaiti ilə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi tərəfindən maliyyələşdirilir

**İcraçı: Şəki Regional Məsləhəti Mərkəzi MMC**
**Ünvan: Şəki, Yemçilik müəssisəsinin ərazisi.**

**Tel/Faks: (+994 177) 5-12-51/ 5-07-28.**

«Daşbulaq» İKKM-də nəşrə hazırlanmış və çap olunmuşdur.
Sifariş № 41. nüsxə 15000

**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi**

**Şəki Regional Məsləhət Mərkəzi MMC**

## İkinci Kənd Təsərrüfatının İnkişafı və Kreditləşməsi Layihəsi

# Yonca otunun yığılması və saxlanmasına dair tövsiyyələr.



**ŞƏKİ - 2007**